# Görüş keçirilmişdir

Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon Şöbəsi hərbi xidməti başa vurub ehtiyata buraxılan gənclərlə görüş keçirmişdir.

Görüşdə rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının rəhbər işçiləri, Qarabağ müharibəsi veteranlarının, təhsil şöbəsinin nümayəndələri, rayon ağsaqqallar şurasının sədri, məktəblilər iştirak etmişlər.

Görüş iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılan abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsini ehtiramla yad etmişlər.

Qəbələ Mədəniyyət Mərkəzində davam edən tədbiri Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə



Dövlət Xidməti Qəbələ Rayon Şöbəsinin rəisi polkovnik-leytenant Rahim Ağayev açmışdır.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Şöbə rəisi Rahim Ağayev orduda xidməti ləyaqətlə başa vurub qayıdan gəncləri təbrik etmiş, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qayğısı sayəsində ölkəmizdə ordu quruculuğu sahəsində əldə olunan nailiyyətlərdən danışmışdır. Bildirmişdir ki, ordumuz texniki təchizat və döyüş hazırlığı qabiliyyətinə görə Cənubi Qafqazın ən güclü ordusudur.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, gənclər və idman idarəsinin əməkdaşı Müşviq Abbasov, Qarabağ müharibəsi veteranı Mehdi Həmidov, rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev orduda xidmətlərini nümunəvi başa vurub ehtiyata buraxılan gəncləri təbrik etmiş, onlara gələcək həyatlarında uğurlar arzulamışlar.

Hərbi xidmətdən ehtiyata buraxılan gənclər adından çıxış edən Rahim Kərimov orduya və ordudan ehtiyata buraxılmış gənclərə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə öz minnətdarlığını bildirmişdir. O qeyd etmişdir ki, orduda xidməti başa vurub ehtiyyata buraxılan gənclər düşmən işğalında olan torpaqlarımızın azad edilməsi uğrunda çağırışa daim hazırdırlar.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsi tərəfindən xidməti nümunəvi başa vurub ehtiyata buraxılan gənclərə Fəxri fərman və qiymətli hədiyyələr verilmişdir.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# Qəbələnin tarixi, etnoqrafiyası və folkloru barədə kitab toplusunun təqdimatı olub

Azərbaycanın maddi və qeyri-maddi irsinin qorunub saxlanılması, tarixi, dini, mədəni abidələrin bərpası və dünyada tanıdılması üzrə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən görülmüş işlərin miqyası ölçüyəgəlməzdir. SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası da bu təşəbbüsə öz töhfəsini vermək məqsədilə Qafqaz Albaniyasının ilk paytaxt şəhəri olmuş Qəbələ şəhərində arxeoloji tədqiqatlara 15 illik fasilədən sonra dəstək verib. Artıq 2005-ci ildən Qəbələ ilə bağlı elmi araşdırmalar SEBA Assosiasiyasının Qəbələ Arxeoloji Ekspedisiyası layihəsinin gerçəkləşdirilməsi ilə bərpa edilib. Ekspedisiyanın fəaliyyətinin nəticəsi olan "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası" və "Qəbələ folkloru" kitablarından ibarət toplu 3 dildə (Azərbaycan, rus, ingilis) "TEAS Press" nəşriyyat evi tərəfindən Bakıda və İstanbulda nəşr edilib.

AZƏRTAC xəbər verir ki, yanvarın 10-da AMEA-da Qəbələnin tarixinə, etnoqrafiyasına və folkloruna həsr olunan toplunun təqdimat mərasimi keçirilib.

Mərasimdə qədim Qəbələ şəhərində aparılan arxeoloji tədqiqatlarının nəticəsi barədə ətraflı məlumat verilib, bölgədə aparılan tədqiqatlarda SEBA Assosiasiyasının və onun prezidenti, geologiya üzrə fəlsəfə doktoru Rühəngiz Heydərovanın təmənnasız dəstəyi xüsusi qeyd edilib.

Tədbirdə Qəbələ etnoqrafik ekspedisiyasına həsr olunan "Qəbələ etüdləri" sənədli filmi nümayiş olunub.

Qeyd edək ki, "Qəbələ tarixi" kitabında bölgənin 450 000 il əvvəl başlanan tarixi 2017-ci ilin əvvəlinə qədər öz əksini tapıb. Kitabda Qəbələ bölgəsinin ibtidai icma, tunc, antik və orta əsrlər dövrlərini əhatə edən minilliklər boyu tarixi keçmişi, qədim Qəbələ şəhərinin Qafqaz Albaniyasının paytaxtı kimi formalaşması və yüksəlişi, XVIII əsrə qədər Qafqazın və Şərqin görkəmli şəhərlərindən biri olması, XIX-XXI əsrlərdəki yüksəlişi barədə geniş məlumat verilib.

"Qəbələ etnoqrafiyası" kitabında regionun təbii-coğrafi şəraitini və etnik mənzərəsini, təsərrüfat həyatını, sənətkarlıq sahələrini, maddi-mənəvi mədəniyyətini, ailə və ailə məişəti barədə məlumatlar geniş oxucu kütləsinin diqqətinə təqdim edilir.

"Qəbələ folkloru" kitabında isə çoxəsrlik folklor mədəniyyəti (xalq poeziyası, əfsanələr və s.) ilk dəfə əhatəli şəkildə qələmə alınıb.

# İş axtaranlar bu sistemə müraciət edə bilər

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əhalinin istifadəsinə verilən "Məşğulluq" altsistemi dövlət məşğulluq xidmətlərinin real vaxt rejimində çevikliyinin təmin edilməsinə və əmək bazarı iştirakçıları üçün əlçatanlığının və effektivliyinin, ümumən əmək bazarında rolunun artırılmasına imkan verir.***

Ölkə başçımız İlham Əliyevin tapşırıqlarına əsasən, sosial sahədə aparılan geniş miqyaslı islahatların bir istiqaməti dövlət məşğulluq xidmətlərini əhatə edir. Məqsəd dövlət məşğulluq xidmətlərinin innovativ yanaşmalar və müasir texnologiyalar üzərində keyfiyyətinin və çevikliyinin artırılmasıdır. Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli müvafiq Fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi mərkəzləşdirilmiş elektron informasiya sistemində yaradılan "Məşğulluq" altsistemi (MAS) də bu məqsədə xidmət edən bir addımdır.

MAS işsiz və işaxtaranlar barədə real mənzərəni əks etdirən və daim yenilənən məlumat bazasına da malikdir və bu baza da daim yenilənir. Həmçinin MAS işəgötürənlər üçün də təqdim etdikləri vakant iş yerlərinə vaxt itkisi olmadan qısa vaxt ərzində uyğun namizədi tapa bilməyə, nəticədə, işəgötürənlərin bu və ya digər peşə və ixtisaslar üzrə işçi qüvvəsinə tələbatlarının çevik şəkildə ödənməsinə şərait yaradır. Vakant iş yerlərinə göndərişlərin verilməsi prosesi elektron infrastruktur üzərində aparılır ki, bu da işədüzəlmədə və işçi qəbulunda müəyyən vaxt itkisini aradan götürür, müasir iş tərzini, şəffaflığı və bu sahəyə birbaşa nəzarət mexanizmini təmin edir.

İşəgötürənlər yeni və ya boş (vakant) iş yerləri barədə məlumatları "Məşğulluq haqqında" Qanuna əsasən ən geci 5 (beş) iş günü müddətində vakansiya bankına daxil etməlidirlər. Bunun üçün onlar e-sosial.az ünvanına (yaxud e-gov.az ünvanına) daxil olmalı, "e-Xidmətlər" bölməsində "Yeni iş yeri və boşalan iş yeri (vakansiya) barədə məlumatların təqdim edilməsi" elektron xidmətini seçməlidirlər. Bundan sonra "Vakansiyalar" bölməsindəki "Yeni vakansiya" altbölməsində vakant iş yeri barədə məlumatlarını daxil etməlidirlər. Sonda isə "Yadda saxla" düyməsini basmalıdırlar.

İşsiz və işaxtaranlar isə "E-sosial" və ya "e-gov.az" portalı vasitəsilə "Məşğulluq" altsisteminə daxil olur, vakansiyalarla tanış olur və özünün iş üçün müraciət anketini formalaşdırır. Bundan sonra məşğulluq mərkəzinin onun üçün təklif etdiyi işlərdən özünə uyğun olanı seçərək işə dair göndəriş təsdiq edir. Təsdiq edilmiş göndəriş aidiyyəti işəgötürənə göndərilir və o, işsiz və ya işaxtaranı dəvət edərək onunla əmək müqaviləsi bağlayır.

İşsiz və işaxtaranlara altsistemdə digər aktiv məşğulluq layihələrindən (özünüməşğulluq və ya "İşsizin DOSTu" proqramı, yaxud peşə hazırlığı, peşəyönümü məsləhət tədbirləri və s.) birini seçmək imkanı da verilir.

# İcbari tibbi sığortanın xidmətlər zərfi

## *Bu zərfə 2550 sayda müxtəlif tibbi xidmətlər daxildir*

**(Əvvəli ötən nömrəmizdə).**

Təhkim olunduğunuz tibb müəssisəsinin ailə həkiminə müraciət etmədən Qaxda (tibbi ərazi bölməsi daxilində, lakin qeydiyyata olduğunuz inzibati ərazidən kənarda) yerləşən tibb müəssisəsinə ixtisas həkiminə müraciət edirsiniz. Bu zaman tibb müəssisəsinə 5 manat müştərək maliyyələşmə məbləği ödəməli olacaqsınız.

Tibbi ərazi bölməsindən kənarda: Vətəndaş ailə həkiminin göndərişi olmadan qeydiyyatda olduğu tibbi ərazi bölməsindən kənarda, yəni icbari tibbi sığorta tətbiq olunan inzibati ərazidə yerləşən tibb müəssisəsinə ambulator şəraitdə göstərilən tibbi xidmətə müraciət etdikdə hər bir sığorta hadisəsinə görə 15 manat müştərək maliyyələşmə məbləği ödəməlidir. Məsələn, siz Şəki şəhərində qeydiyyatdasınız. Təhkim olunduğunuz tibb müəssisəsinin ailə həkiminə müraciət etmədən Şamaxıda (tibbi ərazi bölməsindən kənarda) yerləşən tibb müəssisəsinə ixtisas həkiminə müraciət edirsiniz. Bu zaman tibb müəssisəsinə 15 (on beş) manat müştərək maliyyələşmə məbləği ödəməli olacaqsınız.

Stasionar şəraitdə göstərilən xidmətə tətbiq edilən müştərək maliyyələşmə məbləği isə aşağıdakı qaydada ödənilir:

Tibbi ərazi bölməsi daxilində: Vətəndaş yaşayış və ya olduğu yer üzrə qeydiyyatda olduğu inzibati ərazidə yerləşən tibb müəssisəsi tərəfindən göndəriş vərəqəsi olmadan tibbi ərazi bölməsi daxilində (qeydiyyatda olduğu inzibati ərazi istisna olmaqla) digər inzibati ərazidə yerləşən tibb müəssisəsinə stasionar şəraitdə göstərilən xidmətin alınması üçün müraciət etdikdə 100 manatdan artıq olan hər bir sığorta hadisəsinə görə 30 manat müştərək maliyyələşmə məbləği ödəməlidir. Məsələn, siz Quba rayonunda qeydiyyatdasınız. Təhkim olunduğunuz tibb müəssisəsinin ailə həkiminə müraciət etmədən Xaçmazda (tibbi ərazi bölməsi daxilində, lakin qeydiyyatda olduğunuz inzibati ərazidən kənarda) yerləşən tibb müəssisəsinə stasionar şəraitdə göstərilən xidmətin alınması üçün müraciət edirsiniz. Xidmətlər zərfində müəyyən edilən şərtlərə riayət etmədiyinizə görə, tibb müəssisəsinə 30 manat müştərək maliyyələşmə məbləği ödəməli olacaqsınız.

Tibbi ərazi bölməsindən kənarda: Vətəndaş yaşayış və ya olduğu yer üzrə qeydiyyatda olduğu inzibati ərazidə yerləşən tibb müəssisəsi tərəfindən göndəriş vərəqəsi olmadan tibbi ərazi bölməsindən kənarda, yəni icbari tibbi sığorta tətbiq olunan digər inzibati ərazidə yerləşən tibb müəssisəsinə stasionar şəraitdə göstərilən xidmətin alınması üçün müraciət etdikdə 100 manatdan artıq olan hər bir sığorta hadisəsinə görə 90 manat müştərək maliyyələşmə məbləği ödəməlidir. Məsələn, siz Quba rayonunda qeydiyyatdasınız. Təhkim olunduğunuz tibb müəssisəsinin ailə həkiminə müraciət etmədən Şamaxıda (tibbi ərazi bölməsindən kənarda) yerləşən tibb müəssisəsinə stasionar şəraitdə göstərilən xidmətin alınması üçün müraciət edirsiniz. Xidmətlər zərfində müəyyən edildiyi şərtlərə riayət etmədiyinizə görə, tibb müəssisəsinə 90 manat müştərək maliyyələşmə məbləği ödəməli olacaqsınız.

Eyni zamanda, vətəndaş ambulator şəraitdə göstərilən bütün maqnit-rezonans və kompüter tomoqrafiyası xidmətlərinə görə hər sığorta hadisəsinə görə 20 manat müştərək maliyyələşmə məbləği ödəməlidir. Sığortaolunana bütün tibbi xidmətlər həkimin (ixtisaslı həkim, ailə həkimi, sahə-terapevti, sahə-pediatrı) göndərişi əsasında həyata keçirilir. Həkim müayinəsindən keçmədən göstərilən bütün laborator və diaqnostik xidmətlər icbari tibbi sığorta təminatı çərçivəsində qarşılanmır və vətəndaşın vəsaiti hesabına ödənilir.

Vətəndaş tərəfindən xidmətlər zərfində müəyyən edilən şərtlərə uyğun olaraq (ilkin olaraq ailə həkiminə müraciət olunduqda, ailə həkiminin göndərişi əsasında ixtisaslı həkimə müraciət olunduqda) icbari tibbi sığorta təminatı çərçivəsində ixtisaslaşdırılmış ambulator tibbi yardım (KT, MRT xidmətləri istisna olmaqla), stasionar tibbi yardım, o cümlədən təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi üçün müraciət olunduğu halda müştərək maliyyələşmə məbləği ödənilmir.

Müştərək maliyyələşmə məbləğinin tətbiqinə bu il aprelin 1-dən başlanılacaq.

***"Azərbaycan"***
*15 yanvar 2020-ci il.*